# İQTİSADİ QEYRİ-TARAZLIQLAR

**Elşən Bağırzadə**

*iqtisad üzrə fəlsəfə doktoru*

AZƏRBAYCAN • DÖVLƏT • İQTİSAD • UNİVERSİTETİ
1930

**Bakı - 2015**

# GİRİŞ əvəzi

**Arxlarınızı hava yaxşı olduqda təmizləyin.**

***Çin Atalar Sözü***

# STABİL VƏ QEYRİ-STABİL TARAZLIQ

- İki növ tarazlıq vardır: Stabil və qeyri-stabil.
- ***Stabil tarazlıq***, pozulsa da xaricdən hər hansı bir müdaxiləyə ehtiyac qalmadan özü-özünə yenidən düzələn tarazlıqdır.
- ***Qeyri-stabil tarazlıq***, bir dəfə pozulduqda xaricdən müdaxilə olmadan yenidən düzələ bilməyən tarazlıqdır.



# STABİL VƏ QEYRİ-STABİL TARAZLIQ

- ***İqtisadi siyasətin birinci funksiyası***, pozulan iqtisadi tarazlığı bərpa etməkdir.
- ***İqtisadi siyasətin əsas funksiyası*** isə mövcud tarazlıqda hər hansı bir pozulma olmasa belə arzu olunan tarazlığa nail olmağa imkan verən tədbirlər həyata keçirməkdir. Məs.
  - Daha yüksək iqtisadi artım sürəti,
  - Daha yaxşı gəlir bölgüsü,
  - Daha aşağı inflyasiya,
  - Daha az dövlət borcu,
  - Daha az büdcə kəsiri,
  - Daha yüksək məşğulluq,
  - Daha yüksək investisiya,

səviyyəsinə imkan verən tarazlıqlara nail olmaq.

# İQTİSADİ TARAZLIQDA POZULMA

| *Cədvəl 1: IS və LM əyrilərində sürüşmə və tarazlıqda pozulma səbəbləri* | | | | |
|---|---|---|---|---|
| **Dəyişən** | **Dəyişmə yönü** | **Y** | **R** | **IS və ya LM-ın vəziyyəti** |
| C (İstehlak xərcləri) | + | + | + | IS sağa sürüşür |
| I (İnvestisiya xərcləri) | + | + | + | IS sağa sürüşür |
| G (Dövlət xərcləri) | + | + | + | IS sağa sürüşür |
| T (Vergi) | + | - | - | IS sola sürüşür |
| (X-M) (Xalis ixracat) | + | + | + | IS sağa sürüşür |
| Ms (Pul təklifi) | + | + | - | LM sağa sürüşür |
| Md (Pula tələb) | + | - | + | LM sola sürüşür |

# İQTİSADİ TARAZLIQDA POZULMA

- ***Cədvəl 1-də*** dəyişənlərin dəyişmə yönü mənfi olduqda ***Y (gəlir)*** və ***r (faiz)*** göstəriciləri də cədvəldə göstəriləndən əks istiqamətdə dəyişəcək, ***IS*** və ***LM*** əyriləri də Cədvəldə göstərilənin əksi istiqamətdə sürüşəcəkdir.
- Pul təklifində artım olması ***LM1*** əyrisinin ***Qrafik 1-də*** göstərildiyi kimi sağa aşağıya doğru ***LM2*** olmaqla sürüşməsinə səbəb olacaqdır.

# İQTİSADİ TARAZLIQDA POZULMA




**Qrafik 1: Pul təklifində artım**

# İQTİSADİ TARAZLIQDA POZULMA

- Pul təklifinin artması ilə, yəni ***$LM_1$*** əyrisinin ***$LM_2$***-yə sürüşməsi ilə tarazlıq nöqtəsi də ***$D_1$***-dən ***$D_2$***-yə sürüşəcəkdir. Bu yeni tarazlıqda faiz dərəcəsi ***$r_1$***-dən ***$r_2$***-yə geriləmiş, bunun əksinə olaraq gəlir səviyyəsi ***$Y_1$***-dən ***$Y_2$***-yə yüksəlmişdir.
- Əgər pul təklifində daralma ortaya çıxsa, onda bunun əksi olan proses baş verəcək - faiz dərəcəsi yüksələcək, gəlir səviyyəsi isə azalacaqdır.

# İQTİSADİ TARAZLIQDA POZULMA

- İndi də fərz edək ki, dövlət xərclərində artım ortaya çıxmışdır.
- Bu halda ***Qrafik 2-də*** göstərildiyi kimi ***IS*** əyrisi sağa yuxarı doğru sürüşəcəkdir.
- Dövlət xərclərində artım $D_1$ tarazlıq nöqtəsinin $D_2$-yə sürüşməsinə və bu da faizlərin $r_1$-dən $r_2$-yə yüksəlməsinə, bunun əksinə gəlirin də $Y_1$-dən $Y_2$-yə yüksəlməsinə səbəb olacaqdır.
- Dövlət xərclərində azalma olarsa, onda proses əksinə gedəcəkdir – yəni bir tərəfdən faizlər aşağı düşəcək, digər tərəfdən də gəlirlər azalacaqdır.

# İQTİSADİ TARAZLIQDA POZULMA




**Qrafik 2: Dövlət xərclərində artım**

# İQTİSADİ QEYRİ-TARAZLIQ FORMALARI: İnflyasiya

- ***İnflyasiya***, qiymətlərin ümumi səviyyəsində ortaya çıxan davamlı artımdır.
- Bu tərifi bir qədər dəqiqləşdirsək:
  - 1) Nəzərdə tutulmalı olan qiymətlərin ümumi səviyyəsidir. Yəni ayrı-ayrı qiymətlərin artımı inflyasiya sayıla bilməz.
  - 2) Qiymətlərin ümumi səviyyəsində davamlı artım olmalıdır. Yəni bir və ya bir neçə məhsulun qiymətinin davamlı artması, yaxud da bütün məhsulların qiymətinin bir dəfə artması inflyasiya deyildir.

# İQTİSADİ QEYRİ-TARAZLIQ FORMALARI: İnflyasiya

- Mənbəyinə görə inflyasiyanı 2 növə ayırmaq mümkündür:
  - 1) ***Tələb inflyasiyası***: Məcmu tələb səviyyəsinin məcmu təklif səviyyəsini ötərək davamlı qiymət yüksəlişlərinə səbəb olmasıdır.
    - Başqa sözlə tələb inflyasiyası istehlak xərclərindəki artımdan, bu da əsasən pul təklifinin yüksəlməsindən irəli gəlir.
  - 2) ***Xərc inflyasiyası***: İstehsal amillərinin qiymətlərinin artmasının qiymətlərin davamlı artmasına səbəb olmasıdır.
    - Xərc inflyasiyası əmək haqqı-gəlir çəkişməsi, yerli və idxal xammal məhsulları (neft kimi) qiyumətlərinin yüksəlməsi kimi səbəblərlə ortaya çıxır.

# İQTİSADİ QEYRİ-TARAZLIQ FORMALARI: İnflyasiya

- Sürətinə görə 3 növ inflyasiyanı fərqləndirmək mümkündür:
  - 1) ***Sürünən inflyasiya***: əsasən illik 2-3% həddində olur və elə də çox yüksəliş və enişlərlə müşahidə edilmir.
    - Əsasən inkişaf etmiş ölkələrə xasdır.
  - 2) ***Hiperinflyasiya***: illik 1000%-lik səviyyələrdə olur.
    - 1930-cu illərdə Almaniyada, 1980-cı illərdə Latın Amerikasında müşahidə edilmişdir.
  - 3) ***Mərhələli inflyasiya***: 2 rəqəmli olduğu halda hiperinflyasiyaya çevrilməyən, ancaq müntəzəm olaraq yüksəliş və enişlərlə müşahidə edilən inflyasiyadır.
    - 1980 və 1990-cı illərdə Türkiyədə müşahidə edilmişdir.

# İQTİSADİ QEYRİ-TARAZLIQ FORMALARI: İnflyasiya

- Əslində ***MV=PQ (Fişer bərabərliyi)*** baxsaq, pul təklifi qiymətlər arasında əlaqə olduğunu görmək mümkündür.
- Pul təklifi nəzarətdən çıxdığı zaman inflyasiya artır, yəni milli pulun daxildə dəyəri sürətlə azalır, xarici pullar qarşısındakı dəyəri isə daha sürətlə azlır.
- Pul təklifi nəzarət altına alındığı zaman isə inflyasiya sürətlə azalır, milli pulun xarici pullar qarşısındakı dəyərdən düşmə prosesi zəifləyir.

# İQTİSADİ QEYRİ-TARAZLIQ FORMALARI: İnflyasiya

- İnflyasiyanın ölçülməsində aşağıdakı 2 əsas indeksdən istifadə edilir:
  - 1) ***İstehlakçı qiymətləri indeksi***: Müəyyən bir dövr ərzində istehlakçılar tərəfindən satın alınan əmtəə və xidmətləri əhatə edən müəyyən bir səbətin qiymət dəyişikliklərini müəyyən zaman kəsiyində ölçən indeksdir.
  - 2) ***İstehsalçı qiymətləri indeksi***: Ölkə iqtisadiyyatında istehsalda istifadə edilən əmtəə və xidmətlərin qiymətlərində müəyyən zaman kəsiyində ortaya çıxan dəyişiklikləri ölçən indeksdir.

# İQTİSADİ QEYRİ-TARAZLIQ FORMALARI: Staqflyasiya

- Hər hansı bir iqtisadiyyatda inflyasiya şəraitində iqtisadiyyat böyümürsə, demək həmin iqtisadiyyatda ***staqflyasiya (inflyasiya şəraitində durğunluq)*** vəziyyəti vardır.
- İqtisadi böhranlar arasında içindən çıxılması ən çətin olanlarından biri staqflyasiyadır.
- Əgər iqtisadiyyat inflyasiya şəraitində böyüyürsə, müəyyən qədər iqtisadi artımdan imtina edərək inflyasiyanı azaltmaq olar.
- Ancaq staqflyasiya şəraitində bir tərəfdən inflyasiya ilə mübarizə aparamq, digər tərəfdən isə iqtisadiyyatı canlandırmaq lazımdır ki, bu da çox çətindir.
- Bu halda iki hədəfə də nail olmağa imkan verməyəcək siyasət axtarışına çıxmaqdansa, seçim edərək bu iki hədəfdən birini prioritet götürmək lazımdır.
- Digər tərəfdən bu kimi hallarda gözləntiləri pozitiv istiqamətdə çevirə bilmək də böyük əhəmiyyət daşıyır.

# İQTİSADİ QEYRİ-TARAZLIQ FORMALARI: Slampflyasiya

- Hər hansı bir iqtisadiyyatda inflyasiya şəraitində iqtisadiyyat kiçilirsə, demək həmin iqtisadiyyatda ***slamplyasiya (inflyasiya şəraitində kiçilmə)*** vəziyyəti vardır.
- İqtisadi böhranların ən çətini budur.
- Burada bir tərəfdən inflyasiyanı cilovlamağa çalışarkən, digər tərəfdən də iqtisadiyyatın kiçilməsini əvvəlcə dayandırmaq, sonra da iqtisadi artıma nail olmaq tələb olunur.
- Makroiqtisadi hədəflərin və siyasət alətlərinin bir-birilə ziddiyyət təşkil emtəsi ən çox burada ortaya çıxır.
- Buna görə də staqflyasiya və slampflyasiya ilə mübarizədə ilk növbədə gözləntilərə təsir göstərəcək, onları pozitiv istiqamətdə dəyişdirəcək gözlənti idarəetməsi həyata keçirmək əsas şərtdir.

# İQTİSADİ QEYRİ-TARAZLIQ FORMALARI: Deflyasiya

- Qiymətlərin ümumi səviyyəsində davamlı azalmadır.
- Bu halda milli pulun satınalma gücü yüksəlir.
- İlk baxışda pozitiv iqtisadi proses kimi görünsə də, əslində inflyasiyadan daha mühüm bir iqtisadi böhran ortaya çıxarır.
- Deflyasiya meylləri davam edərsə istehsalçı istehsaldan imtina edər, istehlakçı qiymətlərin daha da azalacağı gözləntisi ilə müxtəlif məhsullara olan tələbini təxirə salar.
- Nəticədə iqtisadiyyat başqa bir böhranla üz-üzə qalar.
- 1990-cı illərdən ***Yaponiya*** belə bir vəziyyəti yaşayır.
- 2008-ci il ***qlobal böhranı (böyük resesiya)*** bir çox ölkədə deflyasiya meyllərinin yaranmasına səbəb olmuş və bir çox ölkə də bu problemi aşmaq üçün tələbi, yəni istehlakı canlandırmağa istiqamətlənmiş ekspansiv maliyyə və pul siyasəti seçməyə məcbur olmuşdur.

# İQTİSADİ QEYRİ-TARAZLIQ FORMALARI: Resesiya

- İqtisadiyyatın kiçilməsidir.
- Son dövrün yanaşmasına görə əgər iqtisadiyyatda üst-üstə iki rüb ÜDM kiçilməsi baş verərsə, demək həmin iqtisadiyyat resesiya vəziyyətindədir.
- Əgər bir iqtisadiyyat resesiyadan 2 rüb sonunda çıxarsa buna ***V tipli çıxış***, daha uzun dövrdə çıxarsa ***U tiplli çıxış*** adı verilir.
- Əgər iqtisadiyyat resesiyadan çıxdıqdan sonra yenidən kiçilməyə doğru gedərsə, onda buna ***W tipli resesiya***, yaxud da ***iki dibli resesiya*** adı verilir.

# İQTİSADİ QEYRİ-TARAZLIQ FORMALARI: Resesiya

- ***Keynesçilər*** resesiyanın məcmu tələbdəki yetərsizlikdən irəli gəldiyini düşünürlər və ona görə də dövlət xərclərinin artırılması yolu ilə maliyyə siyasətinə üstünlük verilməsini təklif edirlər.
- ***Monetaristlər*** də resesiyanın eyni səbəbdən doğduğunu düşünürlər, lakin həll yolu kimi pul təklifinin artırılmasını təklif edirlər.
- ***Təklif yönlü iqtisadiyyat məktəbi***nin nümayəndələri problemin təklif yetərsizliyindən irəli gəldiyini düşünür və təklifi artırmağa xidmət edən vergi yükünün azaldılmasını təklif edirlər.
- Bəzən resesiyanın dərinliyi və müddətini nəzərə alaraq bu siyasətlərin hamısından eyni vaxtda istifadə etmək daha doğru ola bilir.

# İQTİSADİ QEYRİ-TARAZLIQ FORMALARI: Depresiya

- Bir iqtisadiyyat uzun müddət kiçilirsə, buna depresiya deyilir.
- Depresiya ilə resesiyanı fərqləndirən 2 əsas xüsusiyyət vardır:
  - 1) ***Resesiya iqtisadiyyatın daha qısamüddətli kiçilmə halıdır.*** Əsasən 2 rüb ilə bir-neçə il arasında davam edir. Depresiya isə daha uzunmüddətli kiçilmədir.
    - Məs. İngiltərə və ABŞ-da Uzun Depresiya (1873-1986), ABŞ-da Böyük Depresiya (1929-1933).
  - 2) ***Resesiyada ÜDM kiçilməsi daha kiçik səviyyədədir.*** Bəzi iqtisadçılara görə ÜDM-dəki kiçilmə depresiyaya çevrilmək üçün 10% həddini aşmalıdır.
- Bir iqtisadiyyatda kiçilmə ilk mərhələdə resesiyaya səbəb ola bilər, ancaq zəruri tədbirlər görülməsə depresiya qaçılmazıdır.

# İQTİSADİ QEYRİ-TARAZLIQ HALLARININ YARADA BİLƏCƏYİ PROBLEMLƏR

- Slamplflyasiya, deflyasiya, resesiya və depresiya ÜDM-nin azaldığı hallardır və kiçilən iqtisadiyyat ***rifah səviyyəsini də azaldır.***
- İnflyasiyada ÜDM artır, ancaq qiymətlər də artdığı üçün ortaya çıxan rifah artımı elə də güclü təsirə malik olmaz.
- Staqflyasiyada ÜDM artmır, ancaq qiymətlər yüksəlir ki, bu da rifah səviyyəsində itkilər doğurur.
- İqtisadi qeyri-tarazlıq halalrının yaradacağı mühit neqativdir və təbii olaraq da neqativ gözləntilər doğurur.

# YOXLAMA SUALLARI

1. İqtisadi tarazlığın bərabərliyini yazın və bu tarazlığın anlamını açıqlayın.
2. Stabil və qeyri-stabil tarazlığı tarazlığı şərh edin. Bu iki tarazlığın fərqlərini şəkil köməyilə göstərin.
3. Pul təklifində artım olarsa, IS, LM tarazlığı necə dəyişər? Qrafikin köməyilə izah edin.
4. İnflyasiya nədir? Qiymət artımı ilə əsas fərqləri nələrdir?
5. İnflyasiya neçə ölçülür?
6. Deflyasiya nədir? Sizcə inflyasiyanın, yoxsa deflyasiyanın həlli daha asandır? Səbəblərini göstərərək müzakirə edin.
7. Resesiya ilə depresiyanın fərqi nədir? İkisinin də tərifini verərərk müqayisə edin.
8. Staqflyasiyanın inflyasiyadan fərqi nədir?
9. Slampflyasiya nə üçün qeyri-tarazlıq hallarının, yaxud da böhranların ən təhlükəlisidir?
10. İqtisadi qeyri-tarazlıq hallarının əsas nəticələrini şərh edin.

# TÖVSİYƏ OLUNAN MƏNBƏLƏR


- Mahfi Eğilmez, Ercan Kumcu, (2014). "Ekonomi Politikası: Teori ve Türkiye Uygulaması", İstanbul: Remzi Kitabevi, 19. Basım.
- Agnes Benassy-Quere və.b., (2010). "Economic Policy: Theory and Policy". Oxford University Press.
- Qreqori Mənkyu (2007), "Ekonomiksin əsasları", Bakı: CBS Polygraphic Production.
- Rasim Həsənov (2009), "İqtisadi siyasət: metodologiya və praktika", Bakı: "İqtisad Universiteti" nəşriyyatı.